UOT 7.03
https://doi.org/10.59849/2311-8482.2025.4.326

KƏMALƏ MUSTAFAYEVA*

# AZƏRBAYCAN KARİKATURA SƏNƏTİNDƏ QƏRİB İDRİSOVUN YARADICILIQ ÜSLUBU VƏ ESTETİK İDENTİFİKASİYASI

*Bu məqalədə Azərbaycan karikatura sənətinin tanınmış nümayəndəsi, karikaturaçı rəssam Qərib İdrisovun yaradıcılığı tədqiq edilmişdir. Tədqiqat çərçivəsində rəssamın əsərlərində mövzu və üslub müxtəlifliyi, həm siyasi, həm də məişət mövzulu karikaturalar vasitəsilə sosial və ictimai problemlərin ifşası analiz olunmuşdur. Məqalədə Q. İdrisovun "Kirpi" satirik jurnalında dərc olunmuş ilk karikaturalarından etibarən yaradıcılıq inkişafı, onun fərdi rəssam dəst-xətti və bədii tapıntıları, həmçinin ictimai-siyasi kontekstdə yaradıcılığının rolu araşdırılmışdır. Tədqiqatda istifadə olunan metodlar arasında bədii-estetik təhlil, tarixi kontekstin qiymətləndirilməsi və müqayisəli analiz yer alır. Nəticələr göstərir ki, Qərib İdrisovun əsərləri Azərbaycan karikatura sənətində sosial-satirik ifadənin inkişafına, milli bədii təfəkkürün formalaşmasına və estetik dinamizmin artmasına mühüm töhfə vermişdir. Məqalə həmçinin rəssamın yaradıcılıq irsinin konseptual və metodoloji aspektlərini müəyyən etməklə, Azərbaycan karikatura məktəbinin inkişaf istiqamətlərinə elmi-estetik baxış təqdim edir.*

***Açar sözlər:*** *karkatura, satira, rəssam, qrotesk, yaradıcılıq, satirik jurnal*

## Giriş

Beynəlxalq miqyasda və respublika daxilində baş verən ictimai-siyasi prosesləri, həmçinin gündəlik həyatın sosial-məişət mənzərəsini öz yaradıcılıq təcrübəsində geniş və çoxşaxəli şəkildə əks etdirən Azərbaycan karikaturaçı rəssamlarının əsərləri bütün dövrlərdə mövzu spektrinin genişliyi, bədii təsvir vasitələrinin estetik rəngarəngliyi, ideya-məzmun aktuallığı və sənətkarlıq baxımından müasirlik göstəriciləri ilə fərqlənmişdir. Azərbaycan karikaturasının uzun müddət sovet ideoloji sisteminin estetik və bədii çərçivələri daxilində inkişaf etməsinə baxmayaraq, milli rəssamlıq məktəbinin nümayəndələri bu çərçivələr daxilində yaradıcılıq sərbəstliyini qorumağa nail olmuş, real həyat hadisələrini satirik-bədii ümumiləşdirmə kontekstində təqdim etməklə milli karikatura məktəbinin formalaşmasına və konseptual inkişafına mühüm elmi-estetik töhfələr vermişlər.

Rəssamların fərdi müşahidələrinə və sosial təhlil qabiliyyətinə əsaslanan karikaturalar cəmiyyətin sosial strukturunda müşahidə olunan müxtəlif problemli situasiyaları, gündəlik məişətdə rast gəlinən neqativ halları, mənəvi-əxlaqi deformasiyaları və sosial paradoksları həm incə yumor, həm də kəskin satirik diskurs vasitəsilə bədii formada aktuallaşdırmışdır. Rəssamların əsərlərində karikatura sənətinin əsas funksional istiqamətləri olan tənqidi refleksiya, ictimai oyanış və estetik təsir prinsipləri aydın şəkildə müşahidə olunurdu.

Dövri mətbuatın səhifələrində və respublikanın ictimai-siyasi həyatında İ. Nəcəfqulu, Z. Kərimbəyli, V. Ternavski, P. Şandin, Ə. Zeynalov, R. Quliyev, R. Qədimov, H. Haqverdiyev, E. Abdullayev, A. Ələsgərov, V. Tatarinsev, A. Quliyev kimi görkəmli karikatura ustaları ilə yanaşı, yaradıcılıq axtarışlarını sistemli şəkildə davam etdirərək bədii yetkinlik mərhələsinə yüksəlmiş Qərib İdrisovun adı xüsusi qeyd edilməlidir.

XX əsrin 1970-ci illərindən etibarən dövri mətbuat, xüsusilə də "Kirpi" satirik jurnalı ilə yaradıcılıq əməkdaşlığına başlayan Q. İdrisovun fəaliyyəti Azərbaycan karikatura sənətində estetik dinamizmin və bədii konsepsiyanın yenilənməsi baxımından mühüm mərhələ təşkil etmişdir. Onun "Kirpi"yə gəlişi jurnala yalnız yeni nəfəs deyil, həm də milli satirik təfəkkürün estetik transformasiyasına yönəlmiş orijinal bədii istiqamət gətirmişdir. Tamaşaçıda yüksək estetik zövq formalaşdırmaq bacarığına malik olan Qərib İdrisovun mürəkkəb kompozisiya quruluşuna əsaslanan, yumorla zəngin, çoxmənalı assosiativ təsir gücünə malik karikaturaları bədii strukturun tamlığı, semiotik çoxplanlılıq, vizual metaforaların orijinallığı və konseptual yanaşma baxımından seçilir. Rəssamın yaradıcılığı Azərbaycan karikatura sənətində sosial tənqid estetikasının inkişafına və milli bədii təfəkkürün formalaşmasına mühüm elmi-estetik töhfə kimi dəyərləndirilə bilər.

Qərib İdrisov oxucuların diqqətini, demək olar ki, ilk karikaturalarından etibarən, yüksək rəsmetmə mədəniyyəti, peşəkar təsvir texnikası və fərdi bədii dəst-xətti ilə cəlb etmişdir. Yaradıcılıq fəaliyyətinin əvvəllərindən etibarən "Qərib" imzası ilə "Kirpi" satirik jurnalında çıxış edən rəssamın

ilk karikaturaları 1976-cı ildə dərc olunmuşdur. Onun "Satıcısız mağaza", "Sən burada dərnək təşkil edirsən?", "Tikinti foksçusu" və digər əsərləri süjet xəttinin orijinallığı, bədii tapıntının yeniliyi və incə yumor elementlərinin ustalıqla işlənməsi ilə seçilir. İlk karikaturasından son dövrlərə qədər öz üslubuna və fərdi rəssam dəst-xəttinə sadiq qalan Q. İdrisov yaradıcılığının bütün mərhələlərində istər siyasi və məişət mövzulu karikaturaların, istərsə də təbliğat-təşviqat xarakterli rəsmlərin və dostluq şarjlarının müəllifi kimi tanınmış, sənət ictimaiyyətinin rəğbətini qazanmışdır. Rəssamın müxtəlif illərdə "Kirpi" satirik jurnalında dərc olunan əsərləri həm bədii ifadə vasitələrinin zənginliyi, həm də ideya-tematik tutumu baxımından diqqətəlayiqdir. Bu əsərlərdə dünya və ölkə miqyasında baş verən siyasi hadisələr, cəmiyyətdə müşahidə olunan sosial ziddiyyətlər, məişət səviyyəsindəki nöqsan və əyintilər bədii ümumiləşdirmə və satirik simvolika vasitəsilə ifşa edilir. Q. İdrisovun karikaturaları yalnız vizual tənqid funksiyası daşımır, həm də dövrün ictimai-siyasi gerçəkliklərini əks etdirən sənədli-bədii mənbə xarakteri daşıyır. Onun yaradıcılığında irticaçı ideologiyanın, təcavüzkar siyasətin, sosial ədalətsizliyin və cəmiyyətin inkişafına mane olan ünsürlərin ifşası xüsusi yer tutur. Bu mənada "Kirpi" jurnalının səhifələrində, xüsusilə də üz qabığında dərc edilən siyasi karikaturalar və təbliğat xarakterli rəsmlər yüksək ictimai-siyasi yüklü bədii nümunələr kimi çıxış edirdi. Jurnalın demək olar ki, hər nömrəsində bu tip əsərlərə — plakatlara, təşviqat məzmunlu illüstrasiyalara və siyasi karikaturalara rast gəlmək mümkün idi. Bu məzmunlu rəsmlər, əsasən, Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin qurultaylarında, plenumlarda və müxtəlif səviyyəli müşavirələrdə qəbul edilən qərarların, verilən vədlərin və götürülən öhdəliklərin yerinə yetirilməsini, eləcə də əldə olunan nailiyyətlərin geniş təbliğini təmin etməyə xidmət edirdi. Onların əsas məqsədi zəhmətkeşlərin mənəvi ruh yüksəkliyini artırmaq, ictimai-siyasi fəallığı gücləndirmək və cəmiyyəti yeni ideoloji məqsədlərə səfərbər etmək idi. Təbii ki, bu təbliğat və ideoloji istiqamətə xidmət edən sənət sahəsində Qərib İdrisov da fəal iştirak etmiş, sosialist ideallarının estetik təbliği məqsədilə çoxsaylı rəsmlər yaratmışdır. Təsadüfi deyildir ki, dövri mətbuat səhifələrində bu mövzuya həsr olunmuş karikatura və illüstrasiyalar həm kəmiyyət, həm də keyfiyyət baxımından xüsusi üstünlüyə malik idi. Q. İdrisovun həmin dövrdə yaratdığı əsərlər sovet karikatura estetikasının ideoloji prinsipləri ilə milli bədii təfəkkürün sintezinin parlaq nümunəsi kimi qiymətləndirilə bilər

V.Marqolin "Propaqanda" ("Пропаганда") kitabında yazır: "Təbliğat müharibələr zamanı hərbi gücü, danışıqlar masası arxasında gedən siyasi oyunları, zəngin təbii sərvətləri əvəz etməsə də, ondan əksər hallarda çox əhəmiyyətli strateji vasitə kimi istifadə olunur" (9.7). Bu mənada respublika mətbuatında, xüsusilə də "Kirpi" kimi çoxtirajlı və böyük sayda oxucu kütləsinə malik jurnalda dərc olunan, siyasi yük daşıyan təbliğat və təşviqat məzmunlu rəsmlər və plakatlar yeni sovet insanının tərbiyəsində mühüm rol oynayır, onun şüuruna, əxlaqına və dünya görüşünə birbaşa təsir göstərə bilirdi. Bu istiqamətdə məhsuldar fəaliyyəti ilə seçilən karikaturaçı-rəssam Q.İdrisovun 70-ci illərdə dərc edilmiş "Kirpi"nin nəşrinin 25 illiyi münasibəti ilə işləyib hazırladığı "Yoxsa bu aynada? əyri görürsən özünü?", 1 may - zəhmətkeşlərin həmrəylik gününə həsr olunmuş "Hər il bu vaxt Yer kürəsi al-əlvan görünür", qadınların cəmiyyətdə kişilərlə çiyin-çiyinə çalışmaqlarını, onların qayğıkeş ana, sədaqətli həyat yoldaşı olmaqla bərabər, əmək qəhrəmanı, təşkilat və müəssisə rəhbəri, eləcə də ali sovetin deputatı kimi məsul vəzifələr tutmasını gündəmə gətirən "Ata, gülü niyə iki dəstə almısan?" və digər bu mövzulu rəsmləri o illərin siyasi mənzərəsini özündə əks etdirir (1.36; 2.275) (şək.1)

Tanınmış karikatura ustası Q.İdrisovun dövlət planını vaxtından əvvəl yerinə yetirmiş sovet zəhmətkeşlərinin öz qələbələri haqqında raport verməsi mərasimi təsvir olunmuş əsəri də bu mövzuda işlənib hazırlanmışdır. Təbliğat xarakterli bu rəsmin sujeti ön planda təsvir olunmuş iki personajın dialoqu əsasında qurulmuşdur. 1 may – zəhmətkeşlərin həmrəylik günü münasibətilə təşkil olunmuş təntənəli nümayişdə iştirak edən əmək qəhrəmanlarını seyr edən personajlardan biri o birinə deyir: - "Bu müəssisənin işçiləri bayrama öz təqvimləri ilə gəliblər". Şəkilaltı mətndən aydın olur ki, rəsmdə təsvir olunmuş qabaqcıl müəssisənin işçiləri 1978-ci ildə, həm də 1979-cu ilin əvəzinə işləmiş, bir ildə iki ilin planını yerinə yetirmişlər. Müəllif, qəhrəmanların əllərində tutduqları şüarda "1979-cu il yazmaqla, onların 1978-ci ili deyil, artıq 1979-cu ili qarşıladıqlarını xüsusi olaraq göstərməyə nail olmuşdur" (şək.2).

Sovet ideologiyası tələbləri çərçivəsində çalışan rəssam-jurnalistlərimiz kimi Q.İdrisov da öz təbliğat və təşviqat xarakterli rəsmlərində, siyasi plakatlarında dövlətçilik prinsiplərindən çıxış

edərək, ölkədə baş verən mühüm ictimai-siyasi hadisələrə vətəndaş münasibəti bildirmişdir. Rəssamın, "Kirpi" jurnalının səhifələrində dərc edilmiş bu məzmunlu əsərləri sırasında zəhmətkeşlərin xoşbəxt və firavan həyat tərzinin, ölkədə gedən dinc quruculuq işlərinin təbliğ olunduğu, respublikamızın iqtisadiyyatının, vətəndaşların sosial vəziyyətinin yüksəlməsi, kənd təsərrüfatı, neft və qaz sənayesi, təhsil və səhiyyə sahəsindəki nailiyyətlərimizi işıqlandıran, yüksək icra səviyyəsi ilə seçilən təbliğat xarakterli rəsmləri bu gün də maraq doğurur (3.260).

Durğunluq dövrü kimi yadda qalmış Sovet dövrünün 80-cı illərində incəsənət, ədəbiyyat, jurnalistika, xüsusilə də təsviri sənətin ən mübariz qolu olan karikatura və plakat sahəsində çalışan yaradıcı insanların qarşısında yeni tələblər qoyulurdu. Bu işdə ön cəbhədə olan karikaturaçı-rəssamlar ölkənin ictimai-siyasi və mədəni həyatında baş verən hadisələrin, keçirilən qurultayların, plenumların, ali sovetə seçkilərin işıqlandırılmasında və kütləvi təbliğində böyük fəallıq göstərirdilər. Q.İdrisovun Sovet vətəndaşlarının xoşbəxt və firavan həyat tərzinin təbliğ olunduğu "Aprel günəşindən gözü nur aldı, əziz qız nəvələr arzuya çatdı", "Bu möhtəşəm sarayda Azərbaycan tarixinin yeni parlaq səhifələri yazılır", "Ucaldı hünərlə bizim nəsillər", respublikada gedən dinc-quruculuq işlərini, iqtisadiyyat və sənaye sahəsindəki nailiyyətləri işıqlandıran "Gəl, bu qədər rekordçunun arasında oğlunu axtar tap!...", "Belə xüsusiyyət onda müharibə dövründən qalıb", "Addımlarınız daha da uğurlu olsun" və s. bu kimi ciddi siyasi yük daşıyan plakatlar özündə o illərin siyasi ab-havasını əks etdirirdi (şək.3).

Q.İdrisovun müəllifi olduğu, "Kirpi" jurnalının 1980-ci il, 8-ci nömrəsinin üz qabığında dərc edilmiş təbliğat xarakterli rəsmdə əlində Sovet Azərbaycanının dalğalanan bayrağını tutmuş, qürurla və fəxrlə addımlayan əmək qəhrəmanı təsvir olunmuşdur. Ordenlərlə bəzədilmiş bayrağı yüksəyə qaldırmış qəhrəmanın üz cizgiləri onun özünə, öz işinə və əqidəsinə əminliyini, ölkəsinə və xalqına sədaqətini göstərir. Əmək insanının ümumiləşdirilmiş obrazı kimi geniş oxucu-tamaşaçı kütləsinə yaxşı tanış olan bu qəhrəmanın arxasında respublikanın neft və sənaye, kənd təsərrüfatı sahəsində qazandığı uğurlarını əks etdirən zavod və fabriklər, neft buruqları, yeni tikililər və bol məhsullu pambıq və üzüm tarlaları təsvir olunmuşdur. Rəsmin sağ, aşağı hissəsində bu qələbələr və uğurlar münasibətilə əmək qəhrəmanını təbrik edən ictimaiyyət və mətbuat nümayəndələrini görmək olar. İctimai-siyasi yük daşıyan bu rəsmin yuxarı hissəsində o illər geniş yayılmış "Azərbaycan iri addımlarla irəliləyir" şüarı yerləşdirilmişdir (*Şüarın müəllifi − Sovet ittifaqı kommunist partiyasının baş katibi L.İ.Brejnev 1978-ci ildə Azərbaycanda səfərdə olduğu dövrdə respublikamızda aparılan tikinti-quruculuq işlərini, iqtisadi inkişafı bu sözlərlə ifadə etmişdir*) (3.260; 5.1) (şək.4).

SSRİ-nin daxili və xarici siyasətini dəstəkləyən, beynəlxalq aləmdə baş verən siyasi hadisələrə məhz sovet vətəndaşı prizmasından yanaşan rəssamlarımız öz yaradıcılığında son dərəcə səmimi idilər desək, yanılmarıq. Sovet quruluşunun doğrudan da zəhmətkeşlərin və adi insanların mənafeyini qoruduğunu, SSRİ-nin dünyada sülhün və əmin-amanlığın müdafiəçisi olduğunu düşünən rəssamlarımız kimi Q.İdrisovun da "sovet həqiqətlərinə" bütün varlığı ilə inandığını onun hər bir əsərində müşahidə etmək olar.

Təbliğat və təşviqat xarakterli rəsmlərində vətəndaş, dövlətçilik prinsiplərindən çıxış edən tanınmış karikatura ustası siyasi karikatura sahəsində də kifayət qədər uğura imza atmışdır. Q.İdrisovun "Silahlanmaya yox!", "Nakaut!", "Gəlin indi də xaricdə insan hüquqlarının taptalanmasından danışaq", "Təcavüzkara ibrət dərsi" və s. bu kimi əsərləri siyasi uzaqgörənliyi və rəsmetmə mədəniyyəti ilə fərqlənir. Bu karikaturaların hər biri lakonik ifadə tərzinə və böyük məna yükünə malik olub, obyektiv satirik ideya daşıyıcısı kimi çıxış edir.

Rəssamın ciddi siyasi yük daşıyan karikaturalarından biri də 1980-cı ildə, "Kirpi" jurnalının 13-cü nömrəsinin üz qabığında dərc olunmuşdur (6.8). Bu karikaturanın sujet xəttinə görə 1980-ci ildə SSRİ-də keçiriləcək olimpiya oyunlarını hər bir vasitə ilə əngəlləməyə cəhd edən ABŞ, Moskva olimpiya oyunlarına boykot elan etmişdir. "Soyuq müharibə" dövrü adlandırdığımız həmin illərdə ABŞ-ın belə yanaşmasını qısqanclıq və ya siyasi təzyiq kimi də izah etmək olar. Hər bir halda rəssamlarımız ABŞ-ın bu "qısqanclığına" özünəməxsus və orijinal tərzdə yanaşaraq, bu mövzunu işıqlandıra biləcək maraqlı əsərlər yaratmağa müvəffəq olmuşlar. Q.İdrisovun bu mövzuda işləyib hazırladığı "Nokaut!" adlı karikaturasında ABŞ təmsilçisi ilə Moskva Olimpiya oyunlarının simvolu olan ayı balasının boks döyüşü səhnəsi göstərilmişdir.

Rəsmin mərkəzində bu mürəkkəb döyüşdən, daha dəqiq desək, siyasi oyundan qalib çıxan Olimpiya simvolu – ayı balası və onun bu döyüşdən qalib çıxdığını elan edən gülərüz hakim təsvir olunmuşdur. Müəllif, bu mürəkkəb siyasi döyüşün hakimini Yer kürəsi obrazında təsvirə gətirməklə, oxucuların diqqətini həmin gərgin mübarizəyə bütün dünya xalqlarının ədalətlə hakimlik etdiyinə yönəltmişdir. Təsadüfi deyildir ki, döyüşdən qalib çıxmış ayı balasının (olimpiyadanın) qələbəsinə Sovet insanları ilə yanaşı, bütün tərəqqipərvər bəşəriyyəti tərənnüm edən hakim (yer kürəsi) də sevinir. Peşəkar rəssam, qələbə sevincini Yer kürəsinin simasında, duruşunda və mimikasında tam açmağa nail olmuşdur. Rinqin sol küncündə isə bu döyüşdə məğlub olmuş ABŞ idmançısı - yazıq və kötəklənmiş vəziyyətdə təsvir edilmişdir. Amerika bayrağını simvolizə edən geyimdə, əzilmiş silindirdə, taqətsiz halda yerdə oturmuş ABŞ boksçusunun yanında asılmış dəsmalın üzərində "boykot" sözləri aydın oxunur. "Boykot" siyasəti iflasa uğramış ABŞ-ın öz məğlubiyyətini etiraf etməkdən başqa, heç bir çıxış yolu olmamasını rəssam, tamaşaçının diqqətinə çox orijinal formada çatdırmağa müvəffəq olmuşdur desək, yanılmarıq. Əsasən təbliğat plakatı xarakteri daşıyan bu siyasi karikatura öz bədii səviyyəsi, ifadə tərzi və toxunduğu problemin aktuallığı ilə seçilir və diqqət çəkir (3.19) (şək.5).

Respublikamızda baş verən siyasi, sosial, iqtisadi və mədəni hadisələr daim karikaturaçı-rəssamın yaratdığı əsərlərin mövzu və forma biçiminə təsir etmiş, onların yaradıcılığının ümumi inkişaf istiqamətini və bədii təzahür formalarını müəyyənləşdirmişdir.Yeni ifadə tərzi, yeni formalar axtarışında olan Q.İdrisovun respublikanın inkişafına mane olan ünsürlərlə mübarizəyə həsr olunmuş əsərləri o illərin siyasi mənzərəsini bugünkü oxucuya bütün reallığı ilə açır. Q.İdrisovun müəllifi olduğu, öz zəngin estetikası, yüksək bədii səviyyəsi ilə seçilən karikaturaları sırasında ölkənin daxili həyatında baş verən çatışmamazlıqları işıqlandıran, əyintiləri gündəmə gətirən ifşaedici və tənqidi rəsmləri də kifayət qədərdir. Sovet cəmiyyətində yaranan dərin sosial problemlər, ideoloji boşluqlar özünü bu və ya digər formalarda büruzə verir, yeknəsəq həyat tərzi, pafoslu vədlər və şüarlar arxasındakı yalan, sabahkı "xoşbəxt gələcəyə" inamsızlıq insanların həyatına və davranışlarına öz neqativ təsirini göstərirdi. Sözsüz ki, bu mövzular da hər bir rəssam-jurnalist kimi, Q.İdrisov üçün də sözün əsl mənasında münbit zəminə çevrilir, onun yaradıcılığına bir-başa təsir edirdi.

Keçən əsrin 70-80-ci illərinin satirik qrafikasında öz işinin öhdəsindən gələ bilməyən, vəzifəsindən sui-istifadə edən məsul işçilərin, rüşvətə meyilli məmurların, işində ciddi nöqsanlara yol verən müəssisə və təşkilat rəhbərlərinin, vətəndaşların, işçi və qulluqçuların şikayətlərinə, arzu və təkliflərinə laqeyd münasibət göstərən səriştəsiz idarə rəislərinin tənqidinə və ifşasına yönəlmiş karikaturalar çoxluq təşkil edirdi. Rəssam-jurnalist Q.İdrisovun yüksək peşəkarlıqla işləyib hazırladığı, simasız və yaltaq dövlət qulluqçularını gülüş hədəfinə çevirən "Bizim baş mühəndis yaman yaltaqdır", "Manqal başında", "Sənə yüz dəfə demişəm ki, idarənin işini evə gətirmə", dövlət əmlakına, xalq malına biganə münasibət göstərən, vəzifəsinin öhdəsindən gəlməyən dövlət qulluqçularını ifşa edən "Texnikaya xüsusi qayğı", "Görünür bol məhsul uğrunda mübarizə çox gərgin olub", "Dərdiniz nədir?", o illərin ümumi bəlasına çevrilmiş rüşvətxorluğun ifrat vəziyyətini gündəmə gətirən "Rayonumuza ezamiyyətə xoş gəlmisiniz" , "Özünə yardım lazımdır", "Mən işi açdıqca, sən ört-basdır edirsən", boş-boş vədlər verən, laqeyd və tənbəl məmurların yarıtmaz fəaliyyətini işıqlandıran "Daha heç kəsi buraxma", "Qəbul vaxtı qurtardı", "Qəbul qaldı gələn ilə", "Bizə yardıma gəlmişdi" və digər bu kimi karikaturaları öz ifşaedici gülüşü, kəskin sarkazmı, xırda bir detal və ya jest vasitəsi ilə böyük mənanın çatdırılması baxımından diqqətəlayiqdir (şək.6).

Q.İdrisovun "Sənədlərdən göydələn düzəlib, siz hələ binanın bünövrəsini qoymamısınız!" adlı karikaturasında da laqeyd, işinin öhdəsindən gəlməyən idarə rəhbəri hədəf seçilmişdir. İncə yumorla aşılanmış həmin karikaturada öz iş kabinetində rahat əyləşib, telefonla danışan rayon rəhbəri təsvir olunmuşdur. Karikaturanın sujetindən aydın olur ki, rayon rəhbəri üzərinə ciddi öhdəliklər götürmüş tikinti idarəsinin müdirinə telefonla öz iradlarını bildirir. Rəssam, rayon rəhbərini otaqda, tavana qədər qalaqlanmış tikinti sənədləri ilə dolu qovluqların fonunda göstərməklə, "qəhrəman"ın çoxdan təhvil verilməli olan "başıbəlalı" tikinti ilə uzun illərdir ki, maraqlanmamasına eyham vurur. Maraqlıdır ki, rayon rəhbərinin unutduğu bu tikintini nəhayət ki, yada salmasının səbəbi də məsul olduğu vəzifəsinə ciddi yanaşması yox, onun iş otağındakı qovluqların tavana çatmasından, otağında yaranmış darısqallıq olmuşdur. Müvafiq təşkilatların, cavabdeh şəxslərin məsuliyyətsizliyi

ucbatından uzun illər yaddan çıxıb, unudulmuş tikintinin acı taleyini və ümumiyyətlə bu sahədəki acınacaqlı vəziyyəti rəssam, geniş ictimaiyyətin nəzərinə incə yumorla çatdırmağa nail olmuşdur. Hadisəyə orijinal yanaşma tərzi, peşəkar rəssam işi ilə seçilən, tamaşaçıda acı gülüş doğuran bu karikaturada problemin ciddiliyi bütün çılpaqlığı ilə əks olunmuşdur (7.4) (şək.7). Əvvəlki illərdə olduğu kimi 80-ci illərdə də inşaat sahəsində müşahidə edilən bu kimi əyinti və nöqsanlar bütün karikaturaçı rəssamlarımız kimi Q.İdrisovun da diqqət mərkəzində olmuşdur. "Bir-ikisini də qoyun, əli çatsın", "Hələ binanı istifadəyə verməmişik", "Evin tikilsin", ev tikən!", "Dövlət malını hara aparırsan?", "Görmürsüz yağış yağır?!" və s. bu kimi karikaturalarda yeni tikilmiş yaşayış binalarının ancaq rüşvətlə, gözdən pərdə asmaqla qəbul edilməsi faktı acı gülüşlə gündəmə gətirilmişdir (şək.8).

Q.İdrisovun müəllifi olduğu durğunluq dövrünün tipik problemlərindən biri olan dəllallığın, möhtəkirliyin, qohumbazlığın ifşasına yönəlmiş karikaturalarına diqqətlə nəzər saldıqda, rəssamın axtarışlarla dolu yaradıcılıq yolu keçdiyinin şahidi oluruq. Təsviri ifadə vasitələrinin imkanlarından tam şəkildə bəhrələnən karikatura ustasının bu mövzuda işləyib hazırladığı "Sən saydığını say, gör fələk nə sayır", "Alıcılarla kobud rəftar eləmə!", "Uşaq anasına kömək edə bilməz?", "Kişiyə layiq bir iş tapa bilmirsən?", "Uşaq dərsini burda keçir", "Dayıcan, amandır, bacı oğlunu yaddan çıxartma", "İdarəyə iki-üç kadr seçməliyəm" və digər əsərləri müəllifin uğurlu tapıntısı kimi mühüm əhəmiyyət daşıyır (şək.9).

Karikaturaçı rəssamın elm, təhsil, səhiyyə sahəsində müşahidə olunan əyintilərin işıqlandırılması, yalançı alim, yazıçı, təhsil işçilərinin ifşasına yönəlmiş, "Ərköyün balalar", "Ana uşaqları" mövzusunda işləyib hazırladığı karikaturaları öz kəsiri, duzlu satirası ilə seçilir. Rəssamın "Bala, atan dessertasiya düzəldir, mane olma", "Redaktorun qəbulunda", "Narazı şagird", "Boynunuza alın!", "Axı bu vaxt, burda sizin nə işiniz var?", "Müəllimə de ki, indi mən onu çağırıram", gənclər arasında baş alıb gedən tənbəllik, əyləncələrə, yüngül həyat tərzinə meyilliyik, o illərin ümumi bəlasına çevrilmiş modabazlığın, "ana uşaqları" probleminin tənqidinə yönəlmiş "Dedim axı kimin oğluyam", "Mütləq instituta daxil olmalısan", "Sona bülbüllər", "Bığlarını niyə qırxdın?", "Aşırmanı belə taxırlar", "Sənin kimi kişinin oğluna "Zaparojets" yaraşar?", "Səni çağırır", "Mənim oğlum isə rəis olacaq" və digər karikaturaları öz müasirliyi, orijinallığı, mövzu aktuallığı və yüksək rəsmetmə mədəniyyəti ilə bu gün də diqqət mərkəzindədir (şək.10).

"Karikaturada insan və əşyaların şişirtmə və transformasiyası subyektiv şəkildə baş alıb gedə bilməz. Hər cür şişirtmə obyektiv satirik mənaya malik olmalı, ciddi bədii intizamla tənzimlənməlidir" (8.15). Q.İdrisovun karikaturalarındakı qrotesk və şişirtmə, qabardılmış forma və həcmlər ciddi şəkildə tənzimlənir, estetik normalar gözlənilir, ölçülərin pozulmasında müəyyən çərçivələr saxlanılır. Bu karikaturalar yüksək bədii estetikaya malik olduğuna görə, bu gün də müasir və baxımlıdır. Tamaşaçını düşündürən, onda təbəssüm, təəccüb, bəzən də təəssüf hissi doğuran, satirik kəsəri ilə seçilən bu karikaturaların sujet xətti əsasən tənqid hədəfi olan "qəhrəman"ların düşdükləri vəziyyət üzərində qurulmuşdur. Bu karikaturalarda müəllifin ifşaedici gülüşü ilə yanaşı, məzəmmət, tənə və istehza cəhdləri də aydın görünür.

Cəmiyyətdə çeşidli problemləri, müşahidə olunan əyintiləri, mövcud nöqsanları tənqid edən Q.İdrisovun incə yumorla aşılanmış, orijinal rəssam tapıntısı ilə seçilən əsərləri geniş oxucu-tamaşaçı kütləsinə asanlıqla başa düşülən şəkildə təqdim olunurdu. Bu karikaturalarda el misallarından, xalq mahnılarının mətnlərindən, atalar sözlərindən və yanıltmaclardan istifadə edilməsi müəllif və oxucu arasındakı ünsiyyətin daha anlaşıqlı olmasına xidmət edir. Dövri mətbuat səhifələrində dərc olunmuş "O olmasın, bu olsun", "Nə tökərsən aşına, o da çıxar qaşığına", "Balam tez boy ataydı - əli pula çataydı", "Baxdım sənin dalınca mən...", "Dinmə uşaqdır, uşağım" və digər karikaturalarında müəllif, el misallarından, atalar sözlərindən, məşhur kəlamlardan və deyimlərdən məharətlə və məqamında istifadə etmişdir. Milli dəyərlərə, milli kökə istinad edən rəssamın son dərəcə duzlu yumoru ilə yadda qalan, hadisələrə orijinal yanaşma tərzi ilə seçilən karikaturalarının bu cür təqdim olunması oxucuya onu daha asan anlamağa, mövzunu daha aydın başa düşməyə kömək edir (şək.11).

Gündəlik həyatda adi insanların görə bilmədiyi, xoş təbəssümlə, yumorla müşayiət olunan incə məqamları görmək, bu hadisələri tamamilə fərqli rakursdan və orijinal təqdimatda göstərmək qabiliyyəti karikaturaçı rəssamlara xas keyfiyyətlərdəndir. Bu kimi nadir keyfiyyətləri özündə

cəmləşdirən rəssam-jurnalist Qərib İdrisov dövri mətbuat səhifələrində mütəmadi olaraq "sözsüz" karikaturaları ilə də çıxış etmişdir. Həmin illərdə "Kirpi" jurnalının səhifələrində dərc olunmuş "sözsüz" karikaturaların mahir ustası kimi tanınmış və şöhrət qazanmış Q.İdrisovun yeni ruhlu bu əsərlərini tamaşaçı müşayiətedici mətn olmadan belə başa düşür və qəbul edirdi. Yüksək intellektual oxucu-tamaşaçı üçün nəzərdə tutulmuş, karikaturada yeni cərəyan kimi qəbul edilmiş, "beynəlxalq dildə danışan" bu karikaturalar bu gün də öz aktuallığını və müasirliyini qoruyub saxlamışdır.

Rəssamın 1970-80-ci illərdə mətbuat səhifələrində dərc olunmuş "Yeni il qabağı", "Sancaqlanmış müğənni", "Utancaq qadın", "Ustanı cəlb etmək üsulu", "Hücumçu", "İçəridə tək darıxıram", "Modabaz...", "Diqqətsiz sürücü", "Royaldan ayrılmamışam..", "İndi isə lampanı yerinə taxın", "Arvadı qısqancdır", "Laqeyd qala bilmədi", "Maraq", "Qulağım səsdədir", "Bravo!", "Sirk ustası" və digər bu kimi karikaturaları özünün süjet xəttinin aydınlığı ilə seçilir, incə yumoru, rəssam tapıntısı ilə diqqəti cəlb edir. Rəssamın "sözsüz" karikaturalarında problemə yanaşmada yeniləşmə, üslub və mövzu seçimində müasirlik və orijinallıq meyli açıq-aydın hiss olunur (3.178; 10) (şək.12).

Tanınmış karikatura ustası Q.İdrisovun yaradıcılığında ictimai-siyasi yük daşıyan təbliğat xarakterli rəsmlərlə, siyasi və məişət mövzulu karikaturalarla yanaşı, gülüşlə müşahidə olunan, tamaşaçıda xoş ovqat yaradan dostluq şarjları da mühüm yer tuturdu. Karikatura janrının çox çətin və mürəkkəb sahəsi olan şarj, rəssamlardan xüsusi hazırlıq və yüksək peşəkarlıq tələb edir. Bəlkə də elə bu səbəbdən şarja müraciət edən, bu sahədə çalışan rəssamlarımızın sayı bütün dövrlərdə az olmuşdur. Buna baxmayaraq, istər Sovet dövründə, istərsə də müstəqilik dövründə mətbuat səhifələrində vaxtaşırı şarjlar, xüsusilə də dostluq şarjları dərc edilirdi.

T.Makoley dostluq şarjları haqqında yazır: "Dostluq şarjı "dağıdıcı" deyil, "qurucu" başlanğıca malikdir. Bu tənəli gülüş deyil, dostcasına və zarafatyana bir gülüşdür" (11).

Şarjını çəkdiyi qəhrəmanlara xüsusi həssaslıqla yanaşan Q.İdrisov müəllifi olduğu dostluq şarjlarında təsvir etdiyi qəhrəmanı heç vaxt eybəcərləşdirməmiş, onları simasızlaşdırmamışdır. Əksinə, obraz üçün xarakterik və tipik olan cizgiləri axtarıb taparaq, onun manera və jestlərinin, həmçinin xasiyyət və ya sevimli məşğuliyyətinin əsas cəhətlərini qabartmışdır.

Araşdırdığımız zaman kəsiyində Q.İdrisovun dövrünün tanınmış insanlarına, əmək qəhrəmanlarına, incəsənət xadimlərinə həsr etdiyi zəngin şarj qalereyası yaratmağa nail olduğunun şahidinə çevrilirik. Sovet dövründə karikatura janrının geniş yayılmış qolu olan şarjlar, xüsusilə də dostluq şarjları rəssamın yaradıcılığının mühüm hissəsini təşkil edirdi desək, yanılmarıq. Xalq yazıçıları S.Rəhimov, S.Rüstəm, M.İbrahimov, Ə.Ələkbərzadə, Ə.Vəliyev, İ.Əfəndiyev, Anar, xalq şairləri B.Vahabzadə, M.Dilbazi, N.Xəzri, N.Həsənzadə, F.Qoca və digər dostluq şarjları obrazların orijinal, təkrarsız təqdimat tərzi və yüksək bədii səviyyəsi ilə də seçilir. Rəssamın böyük sevgi ilə işləyib hazırladığı bu dostluq şarjları özündə məhz dostluq, xeyirxahlıq, gülüş və təbəssüm, xoş ovqat əks etdirir və əlbəttə, yüksək bədii səviyyəsi ilə seçilirdi.

Görkəmli karikatura ustası D.Moor yazırdı: "Şarj üçün kompozisiya mütləqdir" (12). Bu prinsipdən çıxış edən rəssam öz şarjlarının kompozisiyası üzərində də çox ciddi işləyirdi.

Özünün şarj qalereyasında obrazların bədii həlli baxımından tipikliyə, həmçinin fərdiliyə üstünlük verən Q.İdrisov "Xalq rəssamı Maral Rəhmanzadə", "Daşkəsən dağ-mədən kombinatının maşinisti Nazənin Məmmədova" və "Aktrisa Ofeliya Aslan"ın şarjlarında kompozisiya quruluşuna xüsusi diqqət ayıraraq, obrazların xarakterik cəhətlərini qabartmış, təqdim olunan qəhrəmanların fiqurlarını kağız üzərində düzgün yerləşdirməyə müvəffəq olmuşdur. Bu şarjlarda hər üç qadının peşəsindən çıxış edən müəllif, Maral Rəhmanzadə obrazının simvolikasını palitrada, Nazənin Məmmədovanı sükan arxasında, aktrisa Ofeliya Aslanı isə teatr maskası ilə təsvir etmişdir (şək.13).

Rəssamın "Doğum evinin baş həkimi Şamama Ələsgərova" dostluq şarjında yüzlərlə körpəyə həyat verən həkim obrazı çox maraqlı, eyni zamanda da gözlənilməz rakursdan təqdim olunmuşdur. Müəllif, "saçının sayı qədər" ifadəsinə yaradıcı yanaşaraq, assosiativ informasiyanın bədii həllini həkimin saçlarını körpə uşaqlar şəklində verməklə tapmışdır. Şarjda güclü iradəyə malik, məğrur görünüşlü Şərq qadınının üzünü ifadəli cizgilərlə təsvir etməklə müəllif, onun dəqiq obrazını yaratmağa nail olmuşdur (şək.14).

"Şarj, vacib olan xüsusiyyətləri üzə çıxaran populyarlıq möhürüdür" (11) fikri rəssamın hər bir şarjında dolğun ifadəsini tapmışdır desək, yanılmarıq. Məhz ona görə də həmin əsərlər öz bədii

səviyyəsini bu gün də qoruyub saxlaya bilmişdir. Azərbaycan satirik qrafikasında öz imzası ilə tanınmış və şöhrət qazanmış Q.İdrisov yaradıcılığında mövzu müxtəlifliyi və rəngarəngliyi haqqında mülahizələrə yekun olaraq demək lazımdır ki, dövri mətbuat səhifələrində, xüsusilə də "Kirpi" jurnalında mütəmadi olaraq siyasi və məişət mövzulu karikaturaları, təbliğat xarakterli rəsmləri, dostluq şarjları ilə çıxış etmiş rəssam-jurnalist bütün yaradıcılığı boyu cəmiyyətin inkişafına mane olan ünsürlərlə mübarizə aparmış, ölkədə gedən dinc quruculuq işlərini ləngidən antipodları ifşa etmişdir. Respublikanın ictimai-siyasi və mədəni həyatının ümumi mənzərəsini öz yaradıcılığında əhatəli və çoxcəhətli planda təsvir edən rəssamın əsərləri özünün mövzu müxtəlifliyi, bədii təsvir vasitələrinin rəngarəngliyi, müəllif tapıntısı, orijinal yanaşma tərzi ilə seçilir. "Sözsüz" karikaturaların mahir ustası kimi şöhrət qazanmış Q.İdrisovun böyük ictimai-tərbiyəvi məzmuna, emosional təsir qüvvəsinə, ifadə estetikasına, milli koloritə malik olan müasir ruhlu əsərləri onun davamlı axtarışlarının, gərgin və məhsuldar əməyinin nəticəsi kimi qiymətlidir.

Milli ənənələrə əsaslanan görkəmli karikatura ustası Q.İdrisovun yaradıcılığının araşdırılması, faktiki materialların təhlili bizə onu deməyə əsas verir ki, rəssamın bu illər ərzində yaratdığı əsərlərdə klassik üslub xüsusiyyətlərinin müasirləşdirilməsi, mövzu seçimində və problemə yanaşmada yeniləşmə meylini ilk baxışdan görmək olar. Araşdırdığımız dövr Azərbaycan karikaturasının Sovet karikaturası çərçivəsində inkişaf etməsinə baxmayaraq, tanınmış karikatura ustası Q.İdrisov bu inkişafın istiqamətlərini real həyatdan doğan əsərlərində əks etdirmiş, milli karikatura məktəbimizin inkişafına dəyərli töhfələr vermişdir.

## ƏDƏBİYYAT

1. Hacızadə B. Azərbaycan karikaturası dünən və bu gün / Bakı: "Çaşıoğlu" nəşriyyat – 2007 - 64s.
2. Hacızadə B. "Kirpi"nin rəssamları (1970-1979-cu illər). II cild / Bakı: "Səda" nəşriyyatı - 2017 - 304s.
3. Hacızadə B. "Kirpi"nin rəssamları (1980-1991-ci illər). III cild / Bakı: "Səda" nəşriyyatı – 2017 – 400 s.
4. "Kirpi" satirik jurnalı // Bakı: "Kommunist" nəşriyyatı – 1976 - № 4 – 8 s.
5. "Kirpi" satirik jurnalı // Bakı: "Kommunist" nəşriyyatı – 1980 - № 8 – 8 s.
6. "Kirpi" satirik jurnalı // Bakı: "Kommunist" nəşriyyatı – 1980 - №13 – 8 s.
7. "Kirpi" satirik jurnalı // Bakı: "Kommunist" nəşriyyatı – 1984 - № 17 – 8 s.
8. Кукриниксы. Собр. В IV томах. Том I / Москва: Издательство "Изобразительное искусство" – 1982 - 338 ст.
9. Родс Энтони. Пропаганда (плакаты, карикатуры, кинофильмы) / Москва: Издательство "Эксимо" – 2008 – 312 с.
10. www.azercartoon.com
11. www.soros.karelis.ru (Д.Москин. Краткая энциклопедия карикатуры).
12. www.qlossary.ru.

***Azərbaycan Rəssamlıq Akademiyasının doktorantı***
***E-mail: kamalamustafazadeh@gmail.com***

**Kamala Mustafayeva**

## ARTISTIC STYLE AND AESTHETIC IDENTIFICATION OF QARIB IDRISOV IN AZERBAIJANI CARICATURE ART

This article examines the creative work of Qarib Idrisov, a prominent representative of Azerbaijani caricature art. The study analyzes the diversity of themes and styles in the artist's works, as well as the depiction of social and public issues through both political and everyday-life caricatures. The article explores İdrisov's artistic development from his first caricatures published in the satirical magazine Kirpi, highlighting his unique drawing style, artistic innovations, and the role

of his works within the socio-political context. The research employs methods such as artistic-aesthetic analysis, historical contextualization, and comparative analysis. The findings indicate that Idrisov's works significantly contributed to the development of social-satirical expression in Azerbaijani caricature, the formation of national artistic thinking, and the enhancement of aesthetic dynamism. Furthermore, the article provides a scientific and aesthetic perspective on the conceptual and methodological aspects of the artist's creative legacy and the developmental directions of the Azerbaijani caricature school.

**Keywords:** *caricature, satire, artist, grotesque, creativity, satirical magazine*

**Кямаля Мустафаева**

## ТВОРЧЕСКИЙ СТИЛЬ И ЭСТЕТИЧЕСКАЯ ИДЕНТИФИКАЦИЯ ГЭРИБА ИДРИСОВА В АЗЕРБАЙДЖАНСКОМ ИСКУССТВЕ КАРИКАТУРЫ

В данной статье исследуется творческое наследие Гэриба Идрисова, видного представителя азербайджанской карикатуры. В рамках исследования анализируется разнообразие тем и стилей в произведениях художника, а также раскрытие социальных и общественных проблем через политические и бытовые карикатуры. Статья рассматривает художественное развитие Идрисова начиная с первых карикатур, опубликованных в сатирическом журнале Kirpi, подчеркивая его индивидуальный стиль рисования, художественные находки и роль его творчества в социально-политическом контексте. В исследовании применялись методы художественно-эстетического анализа, исторической интерпретации и сравнительного анализа. Результаты показывают, что работы Идрисова внесли значительный вклад в развитие социально-сатирического выражения в азербайджанской карикатуре, формирование национального художественного мышления и повышение эстетической динамики. Статья также предлагает научно-эстетическую оценку концептуальных и методологических аспектов творческого наследия художника и направлений развития азербайджанской карикатурной школы.

**Ключевые слова:** *карикатура, сатира, художник, гротеск, творчество, сатирический журнал*

*AMEA-nın müxbir üzvü Cəfər Qiyasi tərəfindən təqdim edilmişdir.*

**İlk daxilolma tarixi: 11.10.2025**
**Son daxilolma tarixi:08.11.2025**